**NAXÇIVAN MUXTAR RESPUBLİKASI ALİ MƏCLİSİNİN**

# Q Ə R A R I

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında**

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 8-ci maddəsinə əsasən **qərara alır:**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin müavini:** **ANAR İBRAHİMOV**

Naxçıvan şəhəri, 01 fevral 2024-cü il

№ 38-VI QR

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 01 fevral tarixli 38-VI QR nömrəli Qərarı ilə təsdiq edilmişdir**

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin**
**2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı**

| | | | |
|---|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının, Naxçıvan Muxtar Respublikası Baş nazirinin, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinin və Naxçıvan Muxtar Respublikasının Prokurorluğunun qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələri | Ali Məclisin müvafiq komitələri | Aparatın müvafiq şöbələri |
| 2. | "Naxçıvan Muxtar Respublikasının 2023-cü il büdcəsinin icrası haqqında" Naxçıvan Muxtar Respublikasının Qanun layihəsi | Ali Məclisin müvafiq komitələri (Aparıcı - İqtisadi siyasət komitəsi) | Aparatın müvafiq şöbələri (Aparıcı - İqtisadi məsələlər şöbəsi) |
| 3. | "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi | Hüquq siyasəti komitəsi | Qanunvericilik və hüquq məsələləri şöbəsi |
| 4. | "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi | Hüquq siyasəti komitəsi | Qanunvericilik və hüquq məsələləri şöbəsi |
| 5. | "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi | Hüquq siyasəti komitəsi | Qanunvericilik və hüquq məsələləri şöbəsi |
| 6. | Naxçıvan Muxtar Respublikasının digər qanunlarında dəyişiklik edilməsi haqqında qanun layihələri | Ali Məclisin müvafiq komitələri (Aparıcı - Hüquq siyasəti komitəsi) | Aparatın müvafiq şöbələri (Aparıcı - Qanunvericilik və hüquq məsələləri şöbəsi) |